Şuşa bir Günəşdi, Şuşa bir Aydı, Parisə bənzərdi dağılmasaydı



# ŞUŞA



Şuşa rayon İcra Hakimiyyətinin orqanı

№ 12 (36) ❖ Dekabr 2007-ci il ❖ Qəzet 1932-ci ildən nəşr olunur ❖ Qiyməti 20 qəpik

M.F.Axundov adına Azərbaycan ... Kitabxanası

## *M. P. VAQİF - 290*

# "VAQİF, YAD ET SƏNİ YAD EYLƏYƏNİ"

2007-ci il dekabrın 13-də R. Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında görkəmli Azərbaycan şairi M. P. Vaqifin anadan olmasının 290 illik yubiley təntənəsi - Vaqif poeziya bayramı keçirildi.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Şuşa və Qazax rayon İcra Hakimiyyəti başçılarına birgə keçirdikləri bu yubileyə görə minnətdarlığını bildirdi. Bunun həm də Azərbaycan mədəniyyəti, mə'nəviyyatına ən gözəl töhfə olduğunu qeyd etdi.




Nazir XVIII əsrdən bu günə qədər - üç yüz ilə yaxın bir müddətdə Vaqif poeziyasının mədəniyyətimizə daxil olub, qəlbləri fəth etməsindən, əvvəllər hər il Şuşada keçirilən Vaqif poeziya günlərindən, bu tədbirlərə Heydər Əliyevin xüsusi diqqət və qayğı ilə yanaşmasından, Vaqifin yubileyinin gələcəkdə dünya səviyyəsində qeyd olunmasını nəzərdən keçirilməsindən, prezident İlham Əliyevin yüksək siyasi düşüncə və iste'dadı sayəsində torpaqlarımızın azad olunacağından, növbəti yubiley tədbirlərinin Şuşada - Cıdır düzündə Vaqifin məqbərəsi önündə keçiriləcəyinə inandığından danışdı.

Şuşa rayon İcra Hakimiyyətinin başçısı Nizami Bəhmənov bu tədbirdə iştirak edənlərə - Şuşa və Qazax nümayəndələrinə, şair və yazıçılara öz təşəkkürünü bildirdi. O, bu tədbirin ən'ənəvi olaraq əvvəl Qazaxda keçirildiyindən, keçmişi xatırladan, gələcəyə inam yaradan bu yubileyin əhəmiyyətindən, 1982-ci il yanvarın 14-də Şuşada M. P. Vaqifin məqbərəsinin açılış mərasimində Heydər Əliyevin iştirakından, bu zaldakı foto-stendlərin həmin reallığı əks etdirməsindən, Vaqif poeziya bayramı ən'ənəsinin məhz H. Əliyev tərəfindən qoyulmasından, Şuşada tikinti trestinin rəhbəri olarkən Vaqifin məqbərəsinin tikintisi işinə şəxsən başçılıq etməsindən, gələcəkdə belə yubileylərin Qazaxda başlanıb, Şuşada tamamlanacağına əminliyindən danışdı və bu tədbirdə iştirak edənlərə minnətdarlığını bildirdi.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rauf Hüseynov bu günün mühüm əhəmiyyətindən, Şuşada Vaqifə məqbərə ucaldılması təklifinin ümummilli lider Heydər Əliyev tərəfindən verilməsindən, onun həyata keçirilməsinin təşkilindən və məqbərənin, eyni zamanda poeziya evinin açılışında iştirakından, müasir Azərbaycan bədii dilinin yüksək səviyyəyə qalxmasında Vaqif poeziyasının rolundan, yubiley tədbirinin Qazaxda həyata keçirilməsi mümkünlüyünə görə prezident İlham Əliyevə xalqın ehtiramından danışdı.

Aparıcı - Şuşa Dövlət Musiqili Dram Teatrının aktyoru Teymur Məmmədov Şuşanın tarixindən, xanlıqlar dövrünün ziddiyyətlərindən, Qarabağ xanlığında M. P. Vaqif nüfuzunun rolundan, diplomat, həm də şair kimi şöhrətindən danışdıqca ekranda qədim və bugünkü Şuşa "canlanır". Şərəfli başlanğıc kədərli sonluqla nəticələnir. Şairə qəsd olunur, Qarabağ xanlığı süquta istiqamətlənir, Şuşa yağılar tapdağında qalır. Ancaq söz, sənət, şair ilhamı hər əzaba qalib gəlir. Və bu günlərimizə gəlib-çatan səsinin, dühasının ucalığında Vaqif misraları hər kəsi nikbinliyə, şadlığa, hər cür çətinliyə dözmək bacarığına səsləyir.

***Toy-bayramdır bu dünyanın əzabı,***
***Əqli olan ona gətirər tabı.***

Müğənni Anar Şuşalının ifasında səslənən romans doğma yerlərə məhəbbətə, ülfətə çağırışa çevrildi. Xalq artistləri Firəngiz Mütəllibovanın, İlham Əsgərovun, əməkdar artistlər Yadigar Muradovun, Şükufə Musayevanın, aktyorlar Əli Nurun, Gülnarə Mirzəyevanın, Məmməd Məmmədovun çıxışları, tarzən Nəsib Məhərrəmovun idarə etdiyi ansamblın ifasında səslənən "Qarabağ şikəstəsi" bütövləşmək təşəbbüsündə olanları həsrət buxovlarını qırıb, itirilmiş torpaqlara sahib durmağa - mədəniyyətimizə, mə'nəviyyatımıza, şairlər, yazıçılar, musiqiçilər beşiyi olan Şuşaya - Vaqif ruhunun narahatlıqla hərləndiyi məkana doğru çağırışa çevrildi. S. Vurğunun "Vaqif" pyesindən göstərilən səhnə isə böyük şair Vaqifə ümumxalq məhəbbətinin təcəssümünü ifadə etdi.